# Ümumi təhsil məktəblərində aparılan qiymətləndirmələrin nəticələrindən istifadə imkanları

**Nəzakət Mehdiyeva**

**Müəllif:**
Nəzakət Mehdiyeva — Azərbaycan Respublikası Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun direktor müavini.
E-mail: n.mehdiyeva@tipii.edu.az

**Açar sözlər:**
Summativ qiymətləndirmə, qiymətləndirmə prinsipləri, qiymətləndirmə meyarı, rubrik, analitik qiymətləndirmə, normaya əsaslanan qiymətləndirmə, meyara əsaslanan qiymətləndirmə.

**Annotasiya.** Məqalədə summativ məktəbdaxili qiymətləndirmələrə verilən tələblər, onların spesifik xüsusiyyətləri, nəticələrinin təhlili və həmin nəticələrdən qərarların qəbulu prosesində istifadə imkanları haqqında danışılır. Həmçinin tədris prosesində qiymətləndirmələrin rolu, şagirdlərin öyrənmə nəticələrinə təsiri təsvir olunur, qiymətləndirmənin təşkili yolları, tətbiq üsulları və vasitələri araşdırılır. Qiymətləndirmələr vasitəsilə toplanılan məlumatlardan istifadə edərək kurikulumların, dərsliklərin, müəllim hazırlığının, təlim materiallarının keyfiyyəti haqqında fikir söyləmək və müvafiq qərarlar vermək mümkün olduğu üçün vasitələrin tərtibatından nəticələrin təhlilinə qədər bütün proseslərin vahid prinsiplərə uyğun qurulması məqalənin ana xəttini təşkil edir. Məqalədə summativ qiymətləndirmənin nəticələrindən həm də formalaşdırıcı və diaqnostik vasitə kimi istifadə etmək, eyni zamanda şagirdlərin nəticələrini məktəb daxilində və məktəblər arasında müqayisə etmək imkanları şərh olnur. Beynəlxalq təcrübədən yararlanaraq meyara əsaslanan və normaya əsaslanan qiymətləndirmələrin mahiyyəti haqqında danışılır. Qiymətləndirmə vasitələrinin xarakterik xüsusiyyətləri təsvir edilir, onlar xatırlamağa, mühakimə yürütməyə, dəyərləndirməyə, yaradıcı düşünməyə istiqamətləndirən suallar olmaqla fərqləndirilir və bu tipli sualların şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsindəki rolu aydınlaşdırılır. Məqalədə şagirdlərin qiymətləndirmə nəticələrindən məlumat mənbəyi kimi istifadə etmək üçün statistik təhlillərin əhəmiyyətindən də bəhs olunur. Diqqət yetirilən məsələlərdən biri də obyektiv hesabatlılığın təşkili məsələsidir. Vurğulanan məsələlər «obyektiv qiymətləndirmənin təşkili obyektiv hesabatlılığın təminatıdır» fikrini dəstəkləyir.

https://orcid.org/0000-0003-1818-789X
**DOI:** 10.32906/AJES/683.2018.04.27

**Məqaləyə istinad:** Mehdiyeva N. (2018) *Ümumi təhsil məktəblərində aparılan qiymətləndirmələrin nəticələrindən istifadə imkanları.* «Azərbaycan məktəbi». № 4 (685), səh. 41–53.
**Məqalə tarixçəsi**
Göndərilib: 18.09.2018; Qəbul edilib: 21.11.2018

# Opportunities to use the results of assessments in the secondary schools

**Nazakat Mehdiyeva**

**Author:**
Nazakat Mehdiyeva,
Deputy Director,
Educator's Professional Development İnstitute,
Ph.D doctorate for Education Institute of Azerbaijan Republic.
E-mail:
n.mehdiyeva@tipii.edu.az

**Keywords:**
Summative assessment, prinsiples of assessment, assessment criteria, rubrics, analitic assessment, norm-referenced assessment, criterion-referenced assessment.

**Abstract.** The article discusses the requirements for final school-based assessments, their specific features, analysis of results and the usage of this information in the decision-making process. It also describes the role of assessments in the learning process, the impact of results students learning outcomes, ways of organising assessment, application methods and tools. The role of assessments in the learning process, the impact of pupils on learning outcomes, ways of evaluating assessment, application methods and tools are also being studied. It is possible to give an idea about the quality of curricula, textbooks, teacher training, learning materials and make appropriate decisions using the information collected through assessments. The main line of the article is the creation of all processes in accordance with single principles, from the design of tools to the analysis of the results. The article also provides an overview the final assessment results as a formal and diagnostic tool, as well as comparing students' outcomeat school and between schools. The essence of criteria-based and normative assessments using international experience is also stated in the article. The characteristics of the assessment tools, which are distinguished by questions of remembrance, judging, evaluating, creative thinking, and explaining the role of such questions in assessing the learning outcomes of students are discribed in the article. The article also emphasizes the importance of statistical analyzes to make students use the results as a source of information. One of the issues highlighted in the article is the issue of objective accountability. The highlighted issues support the idea that the objective assessment is the provision of objective accountability.

https://orcid.org/0000-0003-1818-789X
**DOI:** 10.32906/AJES/683.2018.04.27

**To cite this article:** Mehdiyeva N. (2018) *Opportunities to use the results of assessments in the secondary schools.* Azerbaijan Journal of Educational Studies. Vol. 685, Issue IV, pp. 41–53
**Article history**
Received: 18.09.2018; Accepted: 21.11.2018

Qiymətləndirmə təhsilalanların bilik və bacarıqlara yiyələnməsi, onlardan istifadə etmək imkanları haqqında məlumatların toplanması prosesidir. Bu məlumatlar şagirdlərin təlim nailiyyətləri ilə yanaşı onların məktəbə və təlimə münasibəti, müəllimlərin hazırlıq səviyyəsi haqqında nəticə çıxarmaq üçün də əhəmiyyətlidir. Ümumi təhsil məktəblərində bu cür dolğun informasiyanı fənnin tədris olunan müəyyən hissəsinin sonunda keçirilən summativ qiymətləndirmələr vasitəsilə almaq mümkündür. Summativ qiymətləndirmələr təhsilalanların təlim nailiyyətlərini adətən rəqəmli qiymət şəklində ifadə edir və ona görə də formal qiymətləndirmə hesab olunur. Bu proses testlərin keçirilməsi, şagird layihələrinin təqdimatı, yekun tapşırıqların yoxlanılması kimi üsullarla həyata keçirilir. Sonra bu məlumatlar təhlil olunur, valideynlərə ötürülür və ya qiymətləndirmənin məqsədindən asılı olaraq müxtəlif rəsmi göstərişlər şəklində istifadə olunur. Bu yolla maraqlı tərəflərə şagirdlərin fənn biliyi və bacarıqları haqqında məlumat verilir. Həmin məlumatların təlimin səmərəliliyinin artırılmasında necə istifadə olunması ilk növbədə müəllimin peşəkarlığından, sonra isə təhsili idarə edən orqanların, pedaqoji ictimaiyyətin yanaşmalarından asılıdır. Belə ki, bu nəticələrdən tədris prosesinin planlaşdırılması, balların hesablanması, qiymətin yazılması, təhsil sənədlərinin verilməsi, təhsilin bir pilləsindən digərinə keçilməsi ilə yanaşı, müqayisələrin aparılması, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması, təlim resurslarının bölgüsü, kurikulumun və tədrisin keyfiyyətinin dəyərləndirilməsi prosesində istifadə etmək mümkündür. Qiymətləndirmə nəticələrinin belə geniş şəkildə istifadəsi həmin məlumatların obyektivliyini və şəffaflığını zəruri edir.

Qiymətləndirmələrin ədalətli, şəffaf, vahid yanaşma əsasında aparılmasını təmin etmək üçün bütün dünyada qiymətləndirənlərin əməl etməli olduğu tələblər vardır. Pedaqoji qiymətləndirmələrə verilən bu tələbləri bəzən qiymətləndirmənin prinsipləri də adlandırırlar. Aşağıda verilən məlumatlar həmin prinsiplərin mahiyyətini əks etdirir:

*Məqsədəuyğunluq* qiymətləndirmənin məqsədi ilə təşkilinin bir-birinə uyğunluğunu bildirir. Bu zaman məqsəd müəyyənləşdirilir, məlumatların toplanılması və təhlili üsulları seçilir, toplanılan məlumatların xüsusiyyətləri araşdırılır, veriləcək qərarın mahiyyəti təsvir edilir. Müvafiq qərarlar toplanılmış qiymətləndirmə məlumatları əsasında qəbul edilir.

*Vaciblik* qiymətləndirmək üçün təlim nəticələrinin ən vaciblərinin seçilməsidir. Şagirdlər, adətən, qiymətləndirilən məsələlərə təlim prosesində daha ciddi yanaşırlar. Peşəkar müəllim isə qiymətləndirilməsi vacib olan təlim nəticələrini müəyyənləşdirməyi bacarır. Qiymətləndirmənin vaciblik prinsipinə əməl etmək üçün «Qiymətləndirilməsi vacib olan təlim nəticələri hansılardır?», «Əldə olunmuş bilik və bacarıqarın həyati əhəmiyyəti varmı?», «Növbəti mərhələdə şagirdin təhsili üçün bu bilik və bacarıqlar nə qədər vacibdir?» kimi suallara cavab axtarmaq lazımdır.

*Validlik (müvafiqlik)* qiymətləndirmə vasitələri və qiymətləndirmə meyarlarının şagirdlərin nailiyyətlərini qiymətləndirilən sinfin təlim nəticələri üzrə ölçməli olduğunu ehtiva edir. Şagirdlərin bilik və bacarıqlarını dəqiq nümayiş etdirən qiymətləndirmə alətlərini seçmək lazımdır. Bu prosesdə «Necə əmin ola bilərik ki, qiymətləndirmək istədiyimiz təlim nəticələri tədris olunmuş təlim nəticələridir?», «Hansı tapşırıqlar şagirdlərin onlardan gözlənilən nəticələrə nail olduğunu göstərə bilər?» kimi suallara verilən cavablar qiymətləndirmə vasitələrinin validliyini müəyyənləşdirə bilər.

*Relevantlıq (etibarlılıq)* qiymətləndirmə meyarları və rubriklərinin etibarlılığını ifadə edir. Belə ki, qiymətləndirilən eyni iş (şagirdin imtahan kitabçası) müxtəlif şəxslər tərəfindən dəfələrlə yoxlanıldıqda eyni nəticənin alınması şərtdir. İmtahan nəticələrinin obyektivliyi dəqiq və dürüst seçilən meyarlardan asılıdır. Şagirdlərin nailiyyətlərini ölçmək üçün etibarlı alətlər hazırlanmalıdır. Sinif yoxlamalarında və daha genişmiqyaslı qiymətləndirmələrdə istifadə olunan vasitələr etibarlı olarsa, şagirdin həmin yoxlamadan hansı zaman kəsiyində – səhər və ya günorta, bu gün və ya növbəti gün keçməsi fərq etməməlidir.

Etibarlılığın digər bir ölçüsü vasitələr arasında uyğunluqdur. Belə ki, bir tapşırığa

düzgün cavab verən şagird ona oxşar digər tapşırıqlara da düzgün cavab verəcəkdir. Etibarlılığın ölçülməsi üçün ən geniş yayılmış iki metod var: «təkrar testlər», «alternativ forma»ların istifadəsi. Təkrar testlər zamanı eyni qiymətləndirmə vasitəsi iki dəfə, lakin fərqli günlərdə, həftələrdə və ya aylarda istifadə edilir. Təkrar testdə əldə edilən balların mütənasibliyi etibarlılığın göstəricisidir. Alternativlik isə eyni qiymətləndirmə vasitəsinin iki formada (suallar bir-birindən azca fərqlənir) yaradılmasıdır. «Necə edək ki, yoxlama prosesində ayrı-ayrı şəxslər eyni işi qiymətləndirərkən eyni qiyməti verə bilsinlər?», «Əla, yaxşı, kafi, qeyri-kafi qiymət meyarları yetərincə dəqiqdirmi?» kimi suallara verilən cavablar vasitəsilə etibarlılıq prinsipinin gözlənildiyini yoxlaya bilərik.

Qiymətləndirmə vasitələrinin seçilməsi, təhlil olunması, qiymətləndirmənin aparılması və nəticələrin yoxlanılmasında şəffaflıq və davamlılığın gözlənilməsi *qiymətləndirmə məlumatlarının açıqlığı və şəffaflığı* prinsipində öz təzahürünü tapır. Qiymətləndirmə tapşırıqları və prosedurları barədə məlumatlar şagirdlərə və digər maraqlı tərəflərə vaxtında, aydın və dəqiq şəkildə verilməlidir. Qiymətləndirmə meyarları və strategiyaları şagirdə qabaqcadan məlum olmalıdır. Şagird nələrin və hansı formada qiymətləndiriləcəyini əvvəlcədən bilməlidir. «Qiymətləndirmənin bu prinsipini tətbiq etmək üçün «nəyi» və «necə» qiymətləndirəcəyimi şagirdlərə nə vaxt və necə bildirməliyəm?», «Qiymətləndirmə meyarlarını və strategiyalarını şagirdlərlə birgə necə seçə bilərəm?» kimi suallara cavab tapılmalıdır.

*Qiymətləndirmənin ədalətliliyinin* əsas göstəricisi tapşırıq və prosedurların məzmun standartlarından kənarlaşmadan hər bir fərd və ya qrup üçün əlverişli olması, qiymətləndirmə vaxtının tapşırıqların çətinlik dərəcəsinə uyğunlaşdırılmasıdır.

*Qiymətləndirmənin praktikliyi, cəlbediciliyi* onun qrafiki, həcmi və məzmununun iştirakçılar üçün praktik və maraqlı olmasındadır. Qiymətləndirmə prosesi və qiymətləndirmənin forması şagirdləri qorxutmamalıdır.

*Öyrənməni və inkişafı dəstəkləyən rəyvermə* qiymətləndirmə prosesinin əhəmiyyətli hissəsidir. Şagirdlərin təhvil verdikləri formativ və summativ qiymətləndirmə tapşırıqlarına dair rəy almaq hüququ təmin olunmalıdır. Rəyin xarakteri və nə vaxt veriləcəyi onlara əvvəlcədən izah edilməlidir. Bu prinsipi tətbiq etmək üçün «Qiymətləndirilənlərə verilən rəy hansı formada tərtib olunacaq?» sualına cavab axtarmaq lazımdır.

*Qiymətləndirməni təşkil edənlərin səriştəliliyi* çox vacibdir. Qiymətləndirmə prosesinə cəlb olunan hər kəs öz rolunu və məsuliyyətini yerinə yetirmək üçün tələb olunan bacarıqlara malik olmalıdır. Bu prinsipi tətbiq etmək üçün «Qiymətləndirməni təşkil edənlərdən hansı bacarıqlar tələb olunur?» sualı cavablandırılmalıdır.

Məktəb, region səviyyəsində və ya milli səviyyədə aparılmasından asılı olmayaraq qiymətləndirmə sənədləri və proseslərinin bu prinsiplər əsasında tənzimlənməsi diqqətdə saxlanılır. Cədvəl 1-də verilən məlumatlar da eyni prinsiplərə əsaslanaraq müəyyənləşdirilib. Həmin məlumatlar Böyük Məktəb Əməkdaşlığının 17-18 mart 2016-cı il tarixlərində Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 beynəlxalq lisenziyasını almış xüsusi sənədinə istinadən təqdim olunur.

Avropa Şurasının «Demokratik Mədəniyyət Kompetensiyaları»nın çərçivə sənədində «Qiymətləndirmə» başlıqlı hissədə kompetensiyaların da məhz həmin prinsiplərə istinad olunaraq qiymətləndirilməsinin mümkünlüyündən danışılır.

Qiymətləndirmə məlumatlarının şəffaflığı prinsipinin gözlənilməsi, yəni qiymətləndirmənin məqsəd və meyarlarını iştirakçıların əvvəlcədən bilməsi tək yoxlama prosesi ilə bərabər, öyrənməni də səmərəli edir. Meyarların əvvəlcədən məlum olması qiymətləndirmə prosesini şəffaf edirsə, şagirdlərlə birgə hazırlanması qiymətləndirməyə müsbət münasibəti formalaşdırır. Meyarlara əsaslanaraq özünü qiymətləndirmək şagirdlərə həyatı boyu ehtiyacı olacağı

Cədvəl 1. **Qiymətləndirmə sənədləri və proseslərinin tənzimlənməsi**

| Meyarlar | Zəif qiymətləndirmə | Güclü qiymətləndirmə |
|---|---|---|
| **Müvafiqlik:** Qiymətləndirmə tapşırığı standartı əhatə edir. | Verilmiş tapşırıqlar vasitəsilə şagirdlərin hansı bilik və bacarıqları nümayiş etdirəcəyi məlum deyil. Tapşırıqlar şagirdlərə təqdimatın göstəricilərinə uyğun bilik və bacarıqları nümayiş etdirməyə imkan vermir. | Şagirdlərin tapşırıqlar vasitəsilə hansı bilik və bacarıqları nümayiş etdirəcəyi məlumdur. Qiymətləndirmə vasitələrində tələb olunan bilik və bacarıqların məzmunu təqdimatın göstərişlərinə uyğundur. |
| **Əlçatanlıq:** Qiymətləndirmə tapşırıqları bütün şagirdlər üçün əlçatandır. | Tələblər aydın şəkildə müəyyən edilməmişdir. Xüsusi ehtiyacları olanların yerləşdirilməsi imkanları nəzərə alınmayıb. Tapşırıqlar sinifdə ola biləcək mədəniyyət müxtəlifliyini nəzərə almadan yazılmışdır. | Gözləntilər qiymətləndirilənlərə aydındır. Xüsusi ehtiyacları olan şəxslər müvafiq şəkildə yerləşdirilib. Tapşırıqlar mədəniyyətlərin müxtəlifliyinə həssas yanaşma əsasında yazılmışdır. |
| **Keçid imkanı:** Qiymətləndirmə tapşırıqları şagirdin öyrəndiyi biliyi tətbiq edərək yeni bir şey yaratmasına imkan verir. | Tapşırıqlar sinifdə müzakirə olunmuş mənbə və ya tanış mənbələrdən istifadə olunaraq hazırlanmışdır. | Tapşırıqlar inteqrativ bacarıqları ölçür və sinifdə öyrəndiklərinin müxtəlif mənbələr əsasında tətbiqinə imkan verir. Tapşırıqlar real həyat situasiyalarına əsaslanır. |
| *17-18 mart 2016-cı ildə Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 beyəlxalq lisenziyası ilə təsdiqlənmişdir.* | | |

özünüqiymətləndirmə bacarığını formalaşdırmaqda kömək edir. Bu meyarlar standartlar və təlim nəticələri əsasında müəyyən edilir. Qiymətləndirmə meyarları üçün göstəricilər, adətən, SMART texnologiyasına müvafiq tərtib olunur.

SMART məqsədlər, əsasən, 5 tələbə cavab verməlidir: xüsusi, ölçüləbilən, əlçatan, uyğun, vaxt.

SMART (ağıllı) sözünü təşkil edən hərflər ingilis dilində beş sözün baş hərfləridir. Bunlar *xüsusi (specific), ölçüləbilən (measurable), əlçatan (attainable), uyğun (relevant), vaxt (time bound)* sözləridir ki, hər birinin baş hərfi SMART sözünü əmələ gətirir.

Qiymətləndirmənin məqsədi **spesifik (xüsusi)** olmalı, dəqiq ifadə edilməsi və tapşırıqların həmin məqsədlərə uyğunluğu gözlənilməlidir. Məsələn, fikirlərini əsaslandırılmış şəkildə təqdim etmək bacarığını yoxlamaq üçün esse yazmağı, riyazi biliklərini real həyatda tətbiq etmək bacarıqlarını ölçmək üçün situasiya məsələlərini həll etməyi tapşırmaq olar.

Qiymətləndirmənin məqsədi həm də **ölçüləbilən** olmalıdır. Fərdi xüsusiyyətlərdən və şəraitdən asılı olaraq eyni məqsəd üçün fərqli ölçü vasitələri tətbiq oluna bilər. Məsələn, ingilis dili biliyinin ölçü vasitəsi olaraq bəziləri beynəlxalq sertifikatlaşdırma imtahanlarının nəticələrini, bəziləri xarici dildə ünsiyyət saxlamaq imkanını qəbul edir. Amma hər iki halda çatmaq istədiyimiz hədəfin ölçüləbilən olması şərtdir.

Qiymətləndirmənin məqsədi **əlçatan** olmalıdır. Bəzən qarşıya qoyulan məqsədlər imkanlarımızdan böyük olur, bəzən isə mücərrəd olduğu üçün tapşırıqları vaxt çərçivəsinə uyğunlaşdıra bilmirik.

Qarşıya qoyduğumuz məqsəd mövcud fəaliyyətimizə, resurslarımıza və bacarıqlarımıza **uyğun** olmalıdır.

Smart məqsədlərin yazılması texnologiyasında ən vacib məsələlərdən biri də **vaxtın məhdudluğu**nun nəzərə alınmasıdır. Konkret vaxt tələbi bizi daha məsuliyyətli olmağa vadar edir.

Qiymətləndirmə məqsədləri standartlar




əsasında müəyyənləşdiyi üçün onların SMART olması təlim məqsədlərinin də SMART olması anlamına gəlir. Qiymətləndirmənin meyarları təlim məqsədləri (təlim nəticələri) əsasında müəyyənləşir və vasitələr həmin məqsədlərə (nəticələrə) uyğun hazırlanır. Bu göstəricilər təlim və qiymətləndirmənin bir-birini ardıcıl şəkildə tamamladığını nümayiş etdirir.

Qiymətləndirmə məqsədlərinin prinsiplərə uyğunluğunu təmin etməyin bir yolu da qiymətləndirmə meyarlarının rubriklərini hazırlamaqdır. Rubriklər alternativ qiymətləndirmə vasitələrinin (layihə təqdimatı, əl işləri, rəsmlər və s.) tətbiq olunduğu summativ qiymətləndirmələrdə şagirdlərin işi ilə bağlı ədalətli, obyektiv, etibarlı qərar verməyə şərait yaradır. Onlar meyar əsasında qiymətləndirmə şkalasıdır və nailiyyət səviyyələrinə bal verilməsi üçün istifadə olunan mexanizmdir. Rubrik hazırlayan müəllimlər təlim nəticələrinə müvafiq olan meyarları müəyyənləşdirir və onları nailiyyət səviyyələri üzrə təsvir edirlər. Summativ qiymətləndirmələrdə rubriklərin tərtibatındakı ardıcıllığa görə, şagirdlərin əldə etməli olduğu bacarıqlar müəyyən edilir, istifadə ediləcək rubrikin növü (holistik, analitik) ilə bağlı qərar verilir və analitik rubriklər istifadə olunduğu təqdirdə aspektlər müəyyənləşdirilir. Ardınca nailiyyət səviyyəsi göstəricilərinin sayı və necə ifadə olunacağı müəyyənləşdirilir (məsələn, zəif, orta, yaxşı, əla). Bu addımlardan sonra nailiyyət səviyyələri sözlü təsvir (səviyyə deskriptoru) olunur və müvafiq ballar müəyyənləşdirilir.

Qiymətləndirmə rubriklərinin maksimal balı ümumilikdə 100 % təşkil edir. Əgər hər hansı bir bacarıq üzrə tapşırıq analitik rubrik şəklində bir neçə aspekt üzrə yoxlanılarsa, şagirdin aspektlərdən aldığı ballar toplanır və ümumi balı alınır. Sonra şagirdin balı həmin meyar üzrə maksimal bal (100%) ilə nisbətdə hesablanaraq əldə etdiyi nəticə əsasında qiyməti müəyyənləşdirilir. Məsələn, şagird şifahi təqdimat bacarıqlarının qiymətləndirilməsi zamanı birinci aspekt üzrə maksimal 5 baldan 3 bal, ikinci aspekt üzrə maksimal 5 baldan 2 bal, üçüncü aspekt üzrə maksimal 5 baldan 4 bal almışsa, nəticədə, bu şagirdin maksimal 15 baldan 9 bal topladığını göstərir. Həmin şagirdin şifahi təqdimat bacarıqlarının qiymətləndirilməsi üzrə nəticəsi

$9/15 \times 100\% = 60\%$ təşkil edir.

Summativ qiymətləndirmə nəticələrinin həm də formativ məqsədlə istifadə olunduğunu nəzərə alsaq, eyni bacarıqların il ərzində bir neçə dəfə qiymətləndirilməsindən əldə edilən məlumatlar vasitəsilə şagirdlərin müvafiq bacarıqlarının inkişaf xəttini izləmək olar. *Cədvəl 2* şagirdlərin şifahi təqdimat bacarığı üzrə inkişaf dinamikasını izləmək üçün nümunə olaraq verilmişdir.

Summativ qiymətləndirmələrin aparılması və nəticələrinin emalında yanaşmalar onların məqsədinə uyğun olaraq müəyyən edilir. Müasir dünyada summativ qiymətləndirmələrə «normaya əsaslanan» və «meyara əsaslanan» adlandırılan iki yanaşma mövcuddur.

Cədvəl 2. **Şagirdlərin şifahi təqdimat bacarığı üzrə inkişaf dinamikasını izləmək üçün nümunə**

| **Şifahi təqdimat bacarıqları** | **Noyabr** | | **Fevral** | |
|---|---|---|---|---|
| | Bal | Qiymət | Bal | Qiymət |
| 1-ci aspekt üzrə | | | | |
| 2-ci aspekt üzrə | | | | |
| 3-cü aspekt üzrə | | | | |

Cədvəl 3. **Qiymətləndirmənin göstəriciləri**

| **Normalara istiqamətlənmiş qiymətləndirmənin göstəriciləri** | **Say** (nəfərlə) |
|---|---|
| Qiymətləndirilən qrup üzrə orta göstəricidən çox yüksək | |
| Qiymətləndirilən qrup üzrə orta göstəricidən yüksək | |
| Qiymətləndirilən qrup üzrə orta göstərici | |
| Qiymətləndirilən qrup üzrə orta göstəricidən aşağı | |
| Qiymətləndirilən qrup üzrə orta göstəricidən çox aşağı | |

Normalara əsaslanan yanaşma (ingiliscə *norm-referenced*) şagirdin təlim nəticələrinin bütün qiymətləndirilənlərə və ya istinad qruplarına (məsələn, sinif şagirdlərinə, yaxud ölkə üzrə IX sinif şagirdlərinə nəzərən) nisbətdə qiymətləndirilməsini ehtiva edir və həmin nəticələrdən qiymətləndirmədə iştirak edənlərin təlim nailiyyətlərinin müqayisəsi üçün istifadə olunur. Bu səbəbdən normaya əsaslanan qiymətləndirmə vasitələri də qiymətləndirilənlərin öz aralarında müqayisə oluna bilməsi üçün tərtib olunur.

Meyara əsaslanan (ingiliscə *criterion-referenced*) yanaşma isə qiymətləndirilənin konkret məzmun sahəsi üzrə zəruri tədris materialını nə dərəcədə mənimsədiyini ölçməyə xidmət edir və müqayisəli təhlil olunmur. Meyara əsaslanan vasitələr müvafiq olaraq qiymətləndirilənlərin bilik və bacarıqlarının müəyyən sahələr üzrə yoxlanması üçün tərtib edilir. Meyara əsaslanan vasitələr dövlət standartlarına əsasən şagirdlərin təlim nəticələrinin summativ qiymətləndirilməsində, bu və ya digər tədris müəssisəsində təlim proqramının effektivliyinin qiymətləndirilməsində istifadə olunur. Meyara əsaslanan qiymətləndirmə vasitələrini hazırlayanlar məzmunun daha dəqiq detallarını nəzərə alırlar.

Meyara əsaslanan qiymətləndirmənin balları heç bir qrupun nəticəsi ilə tutuşdurulmur və yoxlanılan məzmunun mənimsənilmə nəticəsinə əsasən müəyyən edilir. Şagirdin balı düzgün cavabların faizini ifadə edir və faiz şkalasında təqdim olunur.

Normaya əsaslanan qiymətləndirmənin bal şkalası müqayisə olunan qrupların statistik göstəricilərindən asılı olaraq dəyişir. Şagirdin fərdi balı başqa yoldaşlarının balları ilə müqayisə olunduğuna görə onların hər birinin nəticəsi digər şagirdlərin nəticələrindən asılı olur və nəticələr bəzən *Cədvəl 3*-də olduğu kimi qruplaşdırılaraq təqdim olunur.

Dünyanın bir çox ölkələrinin ümumi təhsil sistemində normalara əsaslanan qiymətləndirmələr aparılır və şagirdlər müxtəlif stan-

dart imtahanlar verirlər. Onların nəticələri həmyaşıdlarının nəticələri ilə müqayisəli şəkildə təhlil edilir. Şagirdin topladığı bal onunla bir vaxtda eyni imtahanı verən həmyaşıdları ilə müqayisədə hansı nəticəni göstərdiyindən xəbər verir. Orta bal 100 olduğu təqdirdə, qiymətləndirilənlərin müəyyən hissəsi 85 və 115 arası nəticə göstərir. 85 baldan aşağı göstərici şagirdlərin imtahan verdiyi bacarıqlar üzrə müəyyən çətinliyinin olduğunu göstərir. 115-dən yuxarı nəticə isə onların yaşına görə yaxşı inkişaf etdiyindən, zəruri bacarıqlara daha yüksək səviyyəyə malik olduğundan xəbər verir.

Hər bir şəxsin nəticəsi özünə aid olduğuna və müqayisə aparılmadığına görə meyara əsaslanan qiymətləndirmələrdə daha çox konkret məzmuna uyğun tapşırıqlar seçilir, şagirdin göstəricisi yazdığı düzgün cavabların sayı ilə müəyyənləşdirilir və ballar onun fərdi nəticəsinə uyğun şərh olunur. Hansı yanaşmaya əsaslanmasından asılı olmayaraq qiymətləndirmələrin uğurla həyata keçirilməsinin ən vacib şərti meyara müvafiq qiymətləndirmə vasitələrindən düzgün şəkildə istifadə olunmasıdır. Summativ qiymətləndirmə vasitələri şagirdlərin təlim nəticələrini ölçmək və təhlil etmək üçün istifadə olunan alətlərdir. Həmin alətlər zaman-zaman dəyişir və tələblərə uyğun olaraq bir formadan digərinə keçilir. Son 20 ildə qiymətləndirmə vasitəsi olaraq test tapşırıqlarından geniş istifadə olunur. Bu dövr ərzində test sözü cəmiyyətdə həm qiymətləndirmə formasını, həm də vasitəsini ifadə etmək üçün işlədilir. Forma olaraq test, iştirak edənlərin hamısının eyni vaxtda və şəraitdə, eyni xüsusiyyətli tapşırıqların cavablandırması, cavabların eyni yanaşma ilə qiymətləndirilməsi olaraq başa düşülür. Həmçinin qiymətləndirilənlərin hazırlıq səviyyəsini müəyyən etməyə imkan verən, çətinlik dərəcələri müxtəlif olan və cavabları variantlar şəklində verilmiş tapşırıqlar da test adlandırılır.

Qeyd olunduğu kimi, qiymətləndirmələrin təşkilində ən mühüm şərt vasitələrin müvafiq, etibarlı şəkildə tərtib olunmasıdır. Vasitələri tərtib edən şəxsə aydın olmalıdır ki, bu tapşırığı iştirakçıya verməkdə məqsədi nədir və nəyi ölçmək istəyir. Tapşırığın tərtibatında qiymətləndirmənin normaya, yoxsa meyara istiqamətlənməsi, diaqnostik, formativ, summativ məqsədli olması nəzərə alınmalıdır.

Tapşırıqların çətinlik dərəcəsinə görə ayrılması və müvafiq ballarla dərəcələndirilməsi qiymətləndirilənlərin təlim nailiyyətlərinin düzgün qruplaşdırılmasına kömək edir. Qiymətləndirilənlərin bəziləri birinci tapşırığı belə həll edə bilmir, bəziləri isə sonuncu tapşırığa qədər hamısını cavablandırır. Orta səviyyəli şagirdlər isə tapşırıqların təxminən yarısına cavab verə bilirlər. Tapşırığın çətinliyi onun yerinə yetirilməsi üçün tələb olunan əqli əməliyyatların sayı və xarakteri, həmçinin nəticələrin emalından sonra düzgün olmayan cavabların hesablanması ilə müəyyən olunur. Düzgün cavabların sayı nə qədər çoxdursa, qiymətləndirilən şəxsin balı və ya biliyinin səviyyəsi bir o qədər yüksək hesab edilir. Bəzən müxtəlif tapşırıqlara verilən düzgün cavablar əsasında ayrı-ayrı qiymətləndirilənlərin eyni bir bilik səviyyəsinə malik olması fikri yaranır. Bu göstəriciyə aydınlıq gətirmək üçün qiymətləndirmə nəticələrinin təhlili zamanı təkcə biliyin səviyyəsi deyil, strukturu da araşdırılır. Biliyin strukturu isə çətinlikləri getdikcə artan tapşırıqlara verilən səhv cavabların əsasında müəyyən olunur. Belə ki, qiymətləndirilən şəxsdən tapşırıqları asandan çətinə doğru cavablandırmaq, keçə bilməyəcəyi çətinlik dərəcəsində dayanmaq və ya səhv etmək gözlənilir. Bəzən çətin sualların düzgün cavablandırıldığı, asan sualların isə səhv olduğu və ya heç cavablandırılmadığı hallar da müşahidə olunur və bu, təhlil zamanı əlavə suallar yaradır (Hacıyeva T., Talıbov T. Kurikulum, 2011, №2).

Təlim prosesində istifadə olunan tapşırıqlar kimi qiymətləndirmə sualları da idrak prosesləri baxımından tərtib olunur. Pedaqoji ədəbiyyatda qiymətləndirmə sualları belə fərqləndirilir: xatırlamağa sövq edən; mühakimə yürütməyə istiqamətləndirən; dəyərləndirməyə istiqamətləndirən; yaradıcı

düşünməyə yönləndirən. Xatırlama sualı öyrəndiyini yada salmağa imkan verir. Belə suallar üçün, ilk növbədə, yadda saxlanması vacib olan məlumatlar müəyyən edilməlidir. Mühakimə yürütməyə istiqamətləndirən suallar səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək bacarığını tələb edir. Dəyərləndirməyə istiqamətləndirilən suallar müxtəlif məlumatlar arasında əlaqə yaratma, təhlil və sintezetmə, qərar vermək bacarıqlarını aşkar edir. Yaradıcı düşünmə bacarığını yoxlayan sualları cavablandırmaq üçün yeni təklif və fikirlər irəli sürmək, həll yollarını tapmaq, məsələyə başqa bir rakursdan yanaşmaq bacarıqlarına malik olmaq lazımdır.

Qiymətləndirmə vasitələrinə verilən balların müəyyənləşdirilməsinə müxtəlif yanaşmalar vardır. Birinci yanaşmada tapşırıq doğru yerinə yetirilibsə, 1 (bir) balla, doğru yerinə yetirilməyibsə, 0 (sıfır) balla qiymətləndirilir. Digər bir yanaşmanın əsas xüsusiyyəti tapşırıqda tələb olunan fəaliyyətlərin sayına bərabər balların verilməsidir. Hər hansı tapşırığa 1 baldan artıq qiymət verdikdə nəyə görə tapşırığa bu qədər bal verildiyini əsaslandırmaq lazımdır.

Cavabların ballarla dərəcələndirilməsi sualın hansı çəkiyə malik olduğunu qabartmaq deməkdir. İdeal variant odur ki, tapşırığa verilən maksimum bal cavabda tələb olunan vacib elementlərin və yaxud ayrı-ayrı fəaliyyətlərin sayına bərabər olsun. Məsələn, sualda verilən illərə uyğun üç tarixi şəxsiyyətin adını yazmaq tələb olunursa, onda cavaba maksimal 3 bal vermək olar. Amma sualın «çəkisini» də unutmaq olmaz. Həmin sual qiymətləndirilənin hafizəsini yoxladığı üçün bu cavaba görə şagirdin yüksək bal alması səmərəli qiymətləndirmə halı hesab oluna bilməz. Odur ki, qiymətləndirmə vasitələri hazırlanarkən yüksək ballar bir neçə faktın tapılmasını tələb edən hafizə yoxlayan suallara deyil, daha mürəkkəb idrak proseslərini yoxlayan suallara aid edilməlidir.

Bu tipli çətinliklərdən irəli gələrək açıq tipli qiymətləndirmə tapşırıqlarına verilmiş balların müvafiq izahını müəyyənləşdirmədən həmin tapşırıqları yoxlamaq və təhlil etmək səmərəli olmur.

*Tapşırığa verilən balların açıqlaması aşağıdakı nümunədə təqdim olunur:*

**Tapşırıq**

AKUT təbii fəlakətlər zamanı çətin vəziyyətə düşmüş, yardıma ehtiyacı olan hər kəsə kömək edən, bunu edərkən təhsilli, intizamlı komanda və yüksək standartlı avadanlıqlardan istifadə edən, kütləni məlumatlandıran, siyasətə qarışmayan, tam könüllülük əsasında təşkil olunmuş bir təşkilatdır. Qızıl Aypara isə «ictimaiyyətin maraqlarına uyğun çalışan» bir təşkilat olub, icazə almadan ianə toplamaq hüququna malikdir. Qızıl Aypara təbii fəlakətlərdə idarə olunmanı, qantoplama, müayinə və müalicə, yaxınları olmayanlara sahiblənmək, çadırlar paylamaq kimi bir çox xidmətləri həyata keçirir.

**Sual:** Aşağıdakılardan hansı ikisi AKUT və Qızıl Ayparanın ortaq xüsusiyyətləridir?

*Ortaq xüsusiyyətlərin qarşısında X işarəsi qoyun. İkidən artıq işarə olduqda bal verilməyəcək.*

A) Çalışanlar əməkhaqqı alır.

B) Təbii fəalakətlər zamanı xilasetmə işlərini həyata keçirir.

C) Fərqli sənət sahələrindən olan insanlar çalışa bilir.

• 2 bal — B və C variantları işarələnibsə;

• 1 bal — B və C variantlarından biri işarələnibsə;

• 0 bal — A variantı qeyd olunubsa və ya heç bir variant qeyd olunmayıbsa.

Digər bir nümunə yazının qiymətləndirilməsi zamanı orfoqrafiya qaydalarına əməl edilməsi ilə bağlı qoyulan şərtləri *(tapşırığın xüsusiyyətindən asılı olaraq şərtlər dəyişir)* əks etdirir. Bunu 4-cü cədvəldə aydın görmək olar.

Hazırda ümumtəhsil məktəblərində summativ qiymətləndirmə vasitələri qiymətləndirmə standartlarının səviyyələri əsasında hazırlanır və məzmun standartlarının mənimsəmə səviyyəsini ölçdüyü üçün şagird nailiyyətləri haqqında məlumat verən əsas

Cədvəl 4. **Qrammatik, orfoqrafik, üslub qaydaları və durğu işarələrinin qoyulması**

| Qrammatik, orfoqrafik, üslub qaydaları və durğu işarələri | | | | | | |
|---|---|---|---|---|---|---|
| 10 sətir həcm üçün | 11-15 sətir həcm üçün | | | 15 sətirdən yuxarı həcm üçün | | |
| | Bir səhv və ya səhvsiz | İki səhv | Üç və daha çox səhv | Səhvsiz və ya iki səhv | Üç səhv | Dörd və daha çox səhv |
| 0 bal | 2 bal | 1 bal | 0 bal | 2 bal | 1 bal | 0 bal |

mənbə hesab olunur. Həmin vasitələrin ümumi cəhəti eyni standartlardan irəli gələn bacarıqları ölçməsidir.

*Standart əsasında qiymətləndirmə vasitələrinin səviyyələr üzrə tərtibatına dair V sinif «Azərbaycan dili» fənnindən bir nümunə təqdim edirik:*

Məzmun standartı: 4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını izah edir.

4.1.2.Q.1. Sözlərin leksik mənasını müəyyənləşdirir (Asan səviyyədir və qiymətləndirmə üçün hazırlanan vasitələrin (tapşırıqların) 20%-ni təşkil etməlidir). Nümunə: ***Aşağıdakı sözlərdən leksik mənası olanları seçərək qarşısında mənalarını yazın:*** *Məgər, məktəb, televizor, lakin, lətifə, nərdivan, və, ilə*

4.1.2.Q.2. Sözlərin sinonim və antonimlərini düzgün tapır (Orta səviyyədir və qiymətləndirmə üçün hazırlanan vasitələrin (tapşırıqların) 30%-ni təşkil etməlidir). Nümunə: ***Verilən sözlər arasından sinonimi olanları seçin və yazın:*** *gecə, kədər, kitab, gözlük, dəftər, qələm, baş, göz, qaş, ürək, tez, yaxşı, dünya, gündüz*

4.1.2.Q.3. Təkmənalı və çoxmənalı sözləri fərqləndirir (Orta-çətin səviyyədir və qiymətləndirmə üçün hazırlanan vasitələrin (tapşırıqların) 30%-ni təşkil etməlidir). Nümunə: ***Təkmənalı və çoxmənalı sözlərin hər birinə aid iki nümunə yazın və cümlədə işlədin.***

4.1.2.Q.4. Çoxmənalı sözlərlə omonimləri fərqləndirir (Çətin səviyyədir və qiymətləndirmə üçün hazırlanan vasitələrin (tapşırıqların) 20%-ni təşkil etməlidir). Nümunə: ***Sizə təqdim olunan sözlər arasından çoxmənalı sözləri birinci cərgədə, omonimləri ikinci cərgədə, həm çoxmənalı, həm də omonim kimi işlənə bilən sözləri isə üçüncü cərgədə qruplaşdıraraq yazın:*** *dolu, baş, bal, qol, göz, kök, ayaq, burun, qulaq, top, ay, yaz, maşın, sarı, ağız, az, dil*

Qiymətləndirmə prosesinin səmərəliliyi onun təhlili nəticəsində əldə olunan məlumatlardan qərarvermə prosesində istifadə edilməsi ilə müəyyənləşir. Çünki qiymətləndirməyə verilən tələblərdən biri təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin edilməsidir. Sinif qiymətləndirmələrinin nəticələri əsasında sinifdaxili fəaliyyətlər bir daha nəzərdən keçirilir, təlim prosesində istifadə olunan tapşırıqların təlim nəticələrinə uyğunluğu təhlil edilir və həmin tapşırıqların şagird bacarıqlarının formalaşmasına təsiri araşdırılır. Milli səviyyədə qiymətləndirmələrin nəticələrindən isə kurikulumun təkmilləşdirilməsi, idarə edilməsi, müəllim hazılığı sahəsində olan

Cədvəl 5. **Şagirdlərin qiymətləndirmə nəticələrinin təhlili**

| № | Soyad | Ad | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | Toplanmış bal | Maksimum bal | Faiz | Qiymət |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Abbasov | Nazim | 0 | 1 | b | 1 | 0 | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | b | 0 | 1 | 10 | 16 | 62.5 | **4** |
| 2 | Axundov | Taleh | 1 | b | 0 | 1 | 0 | 1 | 1 | 0 | 0 | 1 | 0 | 1 | 1 | b | 1 | b | 8 | 16 | 50.0 | **3** |
| 3 | Alısoy | Sabit | 0 | 1 | b | 1 | b | b | 1 | 0 | 0 | 1 | 0 | 1 | 1 | b | 0 | 0 | 6 | 16 | 37.5 | **3** |
| 4 | Babayeva | Sahilə | 0 | 1 | b | 1 | 0 | 1 | 1 | 0 | b | 1 | 1 | 1 | 1 | b | 1 | 0 | 9 | 16 | 56.3 | **3** |
| 5 | Cəfərli | Kamal | 1 | 1 | b | 1 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 0 | b | 0 | 9 | 16 | 56.3 | **3** |
| 6 | Cəfərli | Tural | 1 | b | b | 1 | b | 0 | b | 1 | 1 | 1 | 0 | 1 | 1 | b | 1 | 0 | 8 | 16 | 50.0 | **3** |
| 7 | Əhmədov | Elman | 1 | b | b | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | b | 1 | 1 | 12 | 16 | 75.0 | **4** |
| 8 | Əhmədova | Turanə | 1 | b | b | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 12 | 16 | 75.0 | **4** |
| 9 | Əliyev | Ələddin | 1 | b | b | 1 | b | b | 0 | b | b | 1 | 0 | 1 | 1 | b | b | b | 5 | 16 | 31.3 | **3** |
| 10 | Əliyev | Məzahir | 1 | 0 | 0 | 1 | 0 | 1 | 0 | 1 | 0 | 0 | 0 | 1 | 1 | b | 0 | 1 | 7 | 16 | 43.8 | **3** |
| 11 | Əliyev | Ramiz | 0 | b | b | 1 | 0 | 1 | 1 | 1 | 1 | b | 0 | 1 | 1 | 0 | b | 1 | 8 | 16 | 50.0 | **3** |
| 12 | Əliyeva | Aydan | 0 | b | 0 | 1 | 0 | 1 | 0 | 1 | 1 | 1 | 0 | 1 | 1 | b | b | 0 | 7 | 16 | 43.8 | **3** |
| 13 | Əliyeva | Fatimə | 1 | 0 | b | 1 | 0 | 0 | 1 | b | b | 1 | b | 1 | 1 | b | 0 | 1 | 7 | 16 | 43.8 | **3** |
| 14 | Əlyarzadə | Məlik | 1 | b | 1 | 1 | 1 | 1 | b | 1 | 1 | 1 | 1 | 1 | 1 | b | 1 | 1 | 13 | 16 | 81.3 | **5** |
| 15 | Əmircanov | Tahir | 0 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | b | 0 | 1 | 7 | 16 | 43.8 | **3** |
| 16 | Əsgərli | Emin | 0 | b | b | 1 | 0 | b | b | 0 | 0 | 0 | 0 | 1 | 1 | b | b | 1 | 4 | 16 | 25.0 | **2** |
| 17 | Əzizova | Selcan | 1 | b | b | 1 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | b | 1 | 0 | 9 | 16 | 56.3 | **3** |
| 18 | Haqverdi | Mahir | 1 | 0 | b | 1 | 1 | 0 | 1 | b | 1 | 1 | 1 | 1 | 1 | b | 1 | 0 | 10 | 16 | 62.5 | **4** |
| 19 | Xəlilova | Xədicə | 1 | b | b | 1 | 0 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 9 | 16 | 56.3 | **3** |
| 20 | Isayeva | Zərgül | 0.5 | b | b | 1 | 1 | 0 | 0 | 0 | 1 | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 9.5 | 16 | 59.4 | **3** |
| 21 | Qafarlı | Elgün | 1 | 0 | 0 | 1 | 1 | 0 | 0 | 1 | 1 | 1 | 0 | 1 | 1 | b | 1 | 0 | 9 | 16 | 56.3 | **3** |
| 22 | Qarayeva | Səbinə | 1 | 0 | b | 1 | b | b | 0 | b | 1 | 1 | 0 | 1 | 1 | b | b | b | 6 | 16 | 37.5 | **3** |
| 23 | Qasımlı | Gülnar | 1 | b | b | 1 | 0 | b | b | b | b | 0 | 0 | 1 | 1 | b | 1 | b | 5 | 16 | 31.3 | **3** |
| 24 | Quliyev | Yasin | 1 | b | b | 1 | 0 | 1 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | b | 0 | 1 | 9 | 16 | 56.3 | **3** |
| 25 | Quliyev | Qaya | 1 | 1 | b | 1 | 0 | b | 0 | 0 | 0 | 1 | 0 | 1 | 1 | b | b | b | 6 | 16 | 37.5 | **3** |
| 26 | Lətifova | Vəfa | 1 | b | 0 | 1 | 0 | 1 | b | 1 | 1 | 1 | 1 | 1 | 1 | b | b | 0 | 9 | 16 | 56.3 | **3** |
| 27 | Mahmudlu | Paşa | 1 | b | b | 1 | 0 | 1 | b | b | b | 1 | 1 | 1 | 1 | b | 1 | 1 | 9 | 16 | 56.3 | **3** |
| 28 | Məmmədova | Aydan | 1 | 1 | b | 1 | 1 | b | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 1 | b | 11 | 16 | 68.8 | **4** |
| 29 | Məmmədova | Firuzə | 1 | 0 | b | 1 | 0 | 0 | b | 1 | 0.5 | 0.5 | 1 | 1 | 1 | b | b | b | 7 | 16 | 43.8 | **3** |
| 30 | Məmmədova | Jalə | 1 | 0 | b | 1 | 1 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | b | b | b | 8 | 16 | 50.0 | **3** |
| 31 | Mohabbat | Vajib | 0 | 1 | 0 | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 13 | 16 | 81.3 | **5** |
| 32 | Nəsirli | Ceyhun | 1 | b | b | 1 | 1 | 1 | 0 | b | 1 | 1 | 1 | 1 | 1 | b | b | 1 | 10 | 16 | 62.5 | **4** |
| 33 | Rəhimli | Atilla | 1 | 0 | 0 | 1 | 0 | b | 1 | b | 0.5 | 0.5 | 0 | 1 | 1 | b | 1 | 1 | 8 | 16 | 50.0 | **3** |
| 34 | Teymurzadə | Cəmalə | 1 | 1 | 0 | 1 | 1 | b | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 14 | 16 | 87.5 | **5** |
| 35 | Yunuszadə | Misirxan | 1 | b | b | 1 | 0 | 1 | b | 1 | 1 | 1 | 0 | 1 | 1 | b | 1 | 1 | 10 | 16 | 62.5 | **4** |
| 36 | Zülfüqarlı | Faiq | 0 | 1 | b | 1 | 0 | b | 0 | b | b | b | 0 | 1 | 1 | b | 1 | b | 5 | 16 | 31.3 | **3** |
| | **Doğru sayı** | | **27** | **9** | **1** | **36** | **8** | **15** | **13** | **17** | **25** | **31** | **17** | **36** | **36** | **3** | **19** | **18** | | | | |
| | **Doğru faizi** | | **75** | **25** | **3** | **100** | **22** | **42** | **36** | **47** | **69** | **86** | **47** | **100** | **100** | **8** | **53** | **50** | | | | |

Cədvəl 6. **Eyni qiymətləndirmə vasitələri ilə bilik və bacarıqları yoxlanılan şagirdlərin siniflər üzrə ümumi göstəriciləri**

| Sinif | Mənimsəmə | Keyfiyyət |
|---|---|---|
| 7A | 80.6 | 27.8 |
| 7B | 65.2 | 19.3 |
| 7C | 54.6 | 12.4 |
| 7D | 49.7 | 16.8 |
| | | |




boşluqların müəyyənləşdirilməsi və dərsliklərin təkmilləşdirilməsi ilə bağlı qərarların verilməsində istifadə olunur.

Müəllim qiymətləndirmənin nəticələri əsasında şagirdlərin təlim nəticələrinin standartlara uyğunluğu və onların irəliləyişləri barədə məktəb rəhbərliyinə hesabat verir. Eyni ardıcıllıqla şagirdlərin təlim nəticələrinə cavabdeh olan şəxslər özündən yuxarı orqan qarşısında hesabat verirlər. Deməli, obyektiv hesabatlılığın təməlində obyektiv qiymətləndirmələr durur. Qiymətləndirmənin nəticələrinin təhlili məktəbdə baş verən bütün proseslər barədə fikir bildirməyə imkan verir. Məsələn, hər hansı bir məktəbin məzunlarının qiymətləndirmə nəticəsi qeyri-qənaətbəxşdirsə, bu yalnız təhsilalanların uğursuzluğu deyil. Şagirdin təlim nəticələrinə təsir edən bütün amillərin, o cümlədən onlara dərs deyən müəllimlərin və məktəb rəhbərlərinin fəaliyyətinin də bu uğursuzluqda payı vardır. Bütün hallarda şagirdin təlim nəticələri haqqında məlumatların toplanılmasında məqsəd tədris prosesində lazımi dəyişikliklərin aparılmasıdır.

Qiymətləndirmələrdə şagirdlərin göstərdiyi nəticələrdən məlumat mənbəyi kimi istifadə etmək üçün statistik təhlillər böyük əhəmiyyətə malikdir. Həm hər bir sualın cavablandırılma səviyyəsi, həm də ümumi sinfin təlim göstəriciləri müəllimə gələcək fəaliyyətini planlaşdırmaq üçün mühüm məlumatlar verir.

Cədvəl 5-də sinifdəki şagirdlərin qiymətləndirmə nəticələrinin təhlili hər bir sual üzrə aparılmışdır.

Statistik məlumatlar bilik və bacarıqları eyni qiymətləndirmə vasitələri ilə ölçülmüş bir neçə sinfin nəticələrini müqayisəli təhlil etmək üçün də əhəmiyyətlidir (Cədvəl 6).

Yuxarıda sadalanan tələblər çərçivəsində aparılan summativ qiymətləndirmələrin nəticələri təhsilin keyfiyyətinin artırılması məqsədilə həyata keçirilən tədbirlər üçün məlumat mənbəyi rolunu oynamaqla yanaşı, həm də edilən dəyişikliklərin effektivliyinin müəyyənləşdirilməsi üçün böyük əhəmiyyətə malikdir. Deməli, ilk addım mövcud yanaşmalara yenidən baxmaq və tələblərin çərçivəsini düzgün müəyyənləşdirməkdir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin, 2009-cu il 13 yanvar tarixli, 9 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə konsepsiyası».
2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş «Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası». http://e qanun.az/framework/ 41102?fbclid=IwAR3KTkfzYQ5HqDZbmr DKyHdrKOWzcL2XFaFglmuh_hksy1Dex-jtphCIuYc
3. Əhmədov H. (2016) Təhsildə qiymətləndirmə sisteminə dair. / «Şagird nailiyyətlərinin qiymətləndirilməsi: məzmun və vasitələrin yaradılması problemləri» mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı.
4. Hacıyeva T., Talıbov T. (2011) Testin hazırlanması. // Kurikulum, №2.
5. Principles of Assessment / https://www.sheffield.ac.uk/polopoly_fs/1.209653!/file /Principles_of_Assessment.pdf
6. Reference framework of competences for democratic culture. // Volume 3, Assessment/ www.coe.int/education
7. Designing Effective Assessment / https://app.griffith.edu.au/assessment-matters/docs/design-assessment/principles
8. Summative Assessment Design Guide / file:///C:/Users/Admin/Desktop/Summative-Assessment-Design-Guide-1.pdf
9. What’s the difference? Criterion-referenced tests vs. Norm-referenced tests https://www.renaissance.com/2018/07/11/blog-criterion-referenced-tests-norm-referenced-tests
10. Formative and Summative Assessments / https://poorvucenter.yale.edu/Formative-Summative-Assessments
11. Planning & Teaching Strategieshttps: Module 3: How Do We Assess What Students Know? / https://courses.lumenlearning.com/educationx92x1/chapter/summative-assessment
12. Структура научного знания. / https://www.ifilosofia.ru/izuchaem-i-sdaem-filosofiyu-nauki/269-struktura-nauchnogo-znanija.html
13. Олейник Н. «Тест как инструмент измерения уровня знаний и трудности заданий в современной технологии обучения. / http://opentest.com.ua/test-kak-instrument-izmereniya-urovnya-znanij
14. Педагогические тесты и их содержание, структура, формы и виды. Функции тестов. / https://superinf.ru/view_helpstud.php?id=3435